UOT 94(479.24)

ƏLİ BABAZADƏ

Bakı Dövlət Universiteti,
Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının doktorantı
ORCID: 0009-0007-6072-8780
babazade.9923@mail.ru

İRƏVAN XANLIĞI VƏ RUS İŞĞALI DÖVRÜNDƏ İRƏVAN BÖLGƏSİNİN ETNİK-DİNİ TƏRKİBİ

DOI: https://doi.org/10.36719/2708-065X/109/48-52

Bəhs olunan məqalədə İrəvan xanlığı və rus işğalı dövründə İrəvan bölgəsinin etnik-dini tərkibi araşdırılmışdır. Araşdırmalar göstərir ki, İrəvan bölgəsi Azərbaycanın qədim tarixi bölgələrindən biri olmuşdur. XIX əsrin əvvəlində baş vermiş Rusiya işğallarına qədər İrəvan xanlığı əhalisinin mütləq əksəriyyəti Azərbaycan türkləri idi. Bunu istər Azərbaycan Səfəvilər dövrü, istər Osmanlı işğallarından sonra tərtib edilmiş müfəssəl dəftərlər, eləcə də xanlıq dövrünün və Rusiya işğalı dövrünün mənbələri aydın şəkildə sübut edir. Mənbələr həm də onu aydın şəkildə göstərir ki, Rusiya işğalının gedişində türk-müsəlman əhalisi məcburiyyət ucbatından bölgəni tərk etməyə məcbur qalsa da, İrəvan xanlığının əhalisinin 78%-ni tatarlar (Azərbaycanlılar-Ə.B) təşkil etmişdir. İşğal dövrü və işğaldan sonrakı ilk illərdə bölgəyə çoxsaylı erməni əhali köçürülsə də, bu nisbət 20%-dən yuxarı olmamışdır.

Açar sözlər: Azərbaycan, İrəvan, xanlıq, əhali, etnik-dini tərkib, işğal.

Giriş. Azərbaycan türklərinin ən sıx məskunlaşdığı qədim tarixi bölgələrdən biri də İrəvan bölgəsi olmuşdur. İrəvan bölgəsi coğrafi relyef baxımından Kiçik Qafqazın cənub hissəsini və Ağrı dağına doğru şimaldan cənuba bir sıra yaylaları və düzənlikləri əhatə edir. Əsrlər boyu bu ərazilər Azərbaycan dövlətlərinin, Mannanın, Atropatenanın, Qafqaz Albaniyasının, Eldənizlər dövlətinin, Hülakülər dövlətinin, Qaraqoyunlu və Ağqqoyunlu dövlətlərinin, Səfəvilər imperiyasının, Əfşarlar imperiyasının, sonrakı dövrdə isə İrəvan xanlığının əraziləri olmuşdur. XIX əsrin əvvəllərindən isə İrəvan xanlığı Rusiya imperiyasının işğalçılıq siyasətinin qurbanı oldu. Bölgə təkçə işğal edilmədi, həm də bölgəyə çoxsaylı erməni ailələri köçürüldü, toponimlər, hidronimlər zorla dəyişdirildi. Bununla da, bölgədə gələcək faciələrin əsası qoyuldu.

XV əsrdən etibarən qaynaqlarda Çuxursəd adlandırılan İrəvan bölgəsi XVI əsrin əvvəllərində Səfəvi dövlətinin yaranması nəticəsində Osmanlı imperiyası ilə sərhəd zonaya çevrildi. Əfşarlar imperiyasının süqut etməsindən sonra Azərbaycan ərazilərində 30-a yaxın müstəqil və yarımmüstəqil dövlətlər, xanlıqlar meydana gəldi. Belə xanlıqlardan biri də XVIII əsrin II yarısında keçmiş Çuxursəd bəylərbəyliyinin ərazisində yaranmış İrəvan xanlığı idi [5, s. 71].

Aparılan araşdırmalar göstərir ki, İrəvan xanlığı dövründə İrəvan və ətraf bölgələrin əhalisinin etnik tərkibi ilə bağlı məlumatlar olduqca azlıq təşkil edir və demək olar ki, çox dağınıq haldadır. 1735-ci ildə Nadir xan İrəvan əyalətini osmanlılardan azad etdikdən sonra burada yaşayan 300 ailəni Xorasana köçürmüşdü. 1736-cı ildə Nadir şahın Muğanda tacqoyma mərasimi zamanı şahın qılığına girən katolokos Kənəkirli Abraham xristian məliklərinin köməyi ilə Azərbaycan torpaqlarında ermənilərin sayını artırmaq üçün Xorasandan və müxtəlif yerlərdən alınmış erməni əsirlərin bir qismini İrəvan bölgəsinə göndərdi. Bütün bunların nəticəsində İrəvan bölgəsi əhalisinin demoqrafik tərkibində ermənilərin xeyrinə nəzərəçarpaçaq dəyişikliklər baş verirdi [1, s. 74].

İrəvan xanlığının əhalisinin etnik tərkibi haqqında ilkin məlumatlardan biri 1813-cü ildə İrəvanda olmuş ingilis diplomatı Coyms Moryeyə məxsusdur. İngilis diplomatı öz qeydlərində İrəvan xanlığının əhalisinin 100 min nəfərdən ibarət olduğunu, bunun 25 min nəfərinin isə yaylaq-qışlaq işləri ilə məğul olduğunu yazır. Müəllif yazır ki, burada 15 yaşdan 50 yaşa kimi olan kişilərin sayı 18700 nəfər idi [3, s. 77].

XVIII yüzilliyin birinci yarısı İrəvan xanlığının əhalisinin say və etnik tərkibi haqqında qaynaqlarda və tarixi ədəbiyyatlarda bir sıra statistik məlumatlara rast gəlmək olar. Həmin statistik məlumatlara görə, xanlıq əhalisinin etnik cəhətdən əksəriyyətini Azərbaycan türkləri təşkil etmişdi. Lakin bəhs etdiyimiz dövrdə əhalinin say və etnik məsələlərinə toxunan erməni müəllifləri məqsədli və birmənalı olaraq qərəzli mövqe nümayiş etdirmişdilər və etdirməkdədirlər. Məsələn, İrəvan xanlığının tarixini araşdırmağa cəhd göstərən V.R.Qriqoryan yazırdı ki, "xanlıq əhalisinin əksəriyyətini ermənilər təşkil etmişdilər. Onlardan başqa azərbaycanlılar, kürdlər, türklər və farslar da yaşamışdılar"[2, s.394]. Digər erməni tədqiqatçısı T.X.Akopyan bu fikri təsdiq ləyərək qeyd edirdi ki, "İrəvan əhalisinin əksəriyyətini ermənilər təşkil etmiş və burada yaşayan farslar və türklərin isə başqa ərazilərdən köçürülmə nəticəsində sayı artırılmışdı" [2, s. 394].

İrəvan xanlığının əhalisinin etnik tərkibi və say dinamikası haqqında məlumat verən müəlliflərdən biri də İohan Aton Qildenşteddir. Müəllifin 2002-ci ildə Sankt-Peterburqda təkrar nəşr edilmiş "1770-1773-cü illərdə Qafqaza səyahət" adlı əsəri bu baxımdan maraq kəsb edir. Müəllif bəhs olunan əsərində İrəvan bölgəsinin əhalisi haqqında konkret rəqəmlər göstərməsə də, etnik baxımdan hansı xalqın üstünlük təşkil etməsini sübut edən faktlar verir. İ.A.Qildenştedt özünün səyahətnaməsində yazırdı ki, "Qazax, Borçalı, Baydar dairələrində Gəncə, İrəvan, Ərzurum, Qars və həmçinin Şirvan və Şamaxıda olduğu kimi Osmanlı türkcəsində və yaxud Azərbaycan türkcəsində danışırlar" [7, s. 171]. Müəllif daha sonra İrəvan bölgəsinin əhalisinə toxunaraq qeyd edir ki, onun əhalisi Azərbaycan türklərindən ibarətdir [7, s. 171].

Bundan başqa, 1784-cü il iyulun 10-da Ahalsıx hakimi Süleyman paşa İrəvan başçılarına göndərdiyi məktubda İrəvan əhalisini yerli türklər adlandırmışdı. İrəvan xanlığını erməni dövləti kimi qələmə vermək istəyən erməni din xadimləri də burada ermənilərin azlıq təşkil etdiyini gizlədə bilməmişdilər. Arxiyepiskop Arqutinski P.S.Potyomkinə yazdığı məktubunda İrəvan bölgəsində çox az ermənin yaşadığını etiraf etməli olmuşdu [2, s. 395]. İngiltərənin məşhur siyasi xadimi və tarixçisi Malkholm öz əsərində XVIII yüzilliyin sonu-XIX yüzilliyin əvəllərində bütün keçmiş Səfəvilər dövlətində (yalnız İrəvan xanlığında deyil-müəl.) cəmi 12.383 nəfər erməni əhalisinin yaşadığını gösərmişdi. Məşhur Azərbaycan səyyahı H.Z.Şirvanlı "Bustan-üs-səyahə" əsərində yazırdı ki, "o (İrəvan-müəl), Arran mülkündədir. Azərbaycana məxsusdur... Əhalisi türkdilli və şiə məzhəbindədir. Azacıq isəvi də vardır..."[2, s.395].

Azərbaycanın görkəmli coğrafiyaşünas alimi Məhəmməd Həsən Vəlili Azərbaycanın Rusiya tərəfindən işğal olunması zamanı əhalinin etnik tərkibi haqqında verdiyi məlumatlar da maraq kəsb edir. Müəllif yazır ki, Azərbaycan işğal olunan zaman onun əhalisinin 651 min nəfəri musəvi (ehtimal ki, müsəlmanlar -Ə.B.) idi. Buraya Qazax və Şəmşəddili də daxil edirik. Belə ki, Dərbənd xanlığı 4000 nəfər, Quba xanlığı 35000 nəfər, Bakı xanlığı 7600 nəfər, Şirvan 135000 nəfər, Şəki 98500 nəfər, Qarabağ 90000 nəfər, Gəncə 18500 nəfər, Car camaatlığı 35000 nəfər, İlisu sultanlığı 12000 nəfər, Talış xanlığı 40000 nəfər, İrəvan 115000, Naxçıvan 40800 nəfər, Qazax və Şəmşəddil isə 20000 nəfər idi [4, s. 22-23].

İrəvan xanlığının əhalisinin etnik-dini tərkibinin üzə çıxarılması üçün "Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları" da mühüm rol oynayır [6]. Qeyd etmək lazımdır ki, Qafqaz Rusiya imperiyasının tərkibinə daxil edildikdən sonra, Tiflis şəhəri Cənubi Qafqazın inzibati və mədəni mərkəzi kimi fəaliyyət göstərməyə başlamışdır. Qafqazda yaşayan yüzlərlə xalqı idarə etmək üçün çar Rusiyası orada bir sıra inzibati təşkilat, idarə və cəmiyyətlər açmış, müxtəlif elmi və mədəni müəssisələr təşkil etmişdir. XIX əsrin əvvəllərindən etibarən, həmin idarə və təşkilatlar müxtəlif kitab, məcmuə, jurnal və qəzetlər çap etməyə başlamışdır. Bunların arasında "Qafqaz Arxeoqrafiya Komissiyasının aktları"nı xüsusilə göstərmək olar. Çoxhəcmliliyi və elmi əhəmiyyəti ilə fərqlənən Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı 12 cildlik sənədlər toplusu məşhur Qafqazşünas alim A.Berjenin redaktorluğu ilə hazırlanaraq 1866-cı ildən etibarən Tiflisdə çap olunmuşdur. Bu toplularda rəsmi səciyyə daşıyan sənədlərlə (Qafqazın baş komandan və hakimlərinin hesabatları, raportları, məktub və reskriptlər və s.) yanaşı, statistik materiallar (vergi siyahıları və cədvəlləri, gəlir-çıxar sənədləri və s.) da mövcuddur. Qafqazda yaşayan digər xalqlarla yanaşı, Azərbaycan tarixinə dair mühüm mənbə sayılan bu toplularda Azərbaycan xanlıqlarının ictimai-iqtisadi, siyasi həyatı və s. öz əksini tapmışdır.

Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarının 7-ci cildində əksini tapan məlumatlardan biri 1828-ci il aprelin 2-də qraf Paskeviçin baş qərargah rəisi qraf Dibiçə ünvanlanmışdır. Məlumatdan aydın olur ki, xanlıq əhalisinin 3/4 hissəsi müsəlmanlar idi [10, cild 7, sənəd 438, s. 487]. Bundan başqa, Yermolovun 1828-ci il noyabrın 16-da Rusiya xarici dinlər idarəsinin rəisi Bludova yazdığı başqa bir gizli məlumatda İrəvan xanlığı əhalisinin 2/3 hissəsinin Azərbaycan türklərinin olduğu göstərilmişdi [11, cild 7, sənəd 214, s. 258]. Rus hərb tarixçisi N.Dubrovin də "bütün İrəvan xanlığında əhali arasında Azərbaycan türklərinin çoxluq təşkil etdiyini" təsdiq edirdi [8, cild 1, 2-ci kitab, s.326].

İrəvan xanlığının əhalisinin etnik-dini tərkibi ilə bağlı "Qafqaz toplusu"nun XXII cildində yazılır ki, 1826-cı ildə İrəvan xanlığında 12 min ailə tatar, 3800 ailə erməni, Rusiya işğalı ərəfəsində isə xanlıqda 49875 nəfər tatar, 324 nəfər kürd, 20073 nəfər erməni yaşayırdı [9, cild 22, s.26].

Beləliklə, ilkin məlumatlardan göründüyü kimi əksər mənbələr İrəvan xanlığının əhalisinin əksəriyyətinin müsəlmanlardan ibarət olduğunu təsdiqləyir. Nəzərə alsaq ki, müsəlmanlar, əsasən Azərbaycan türkləri idi, o zaman İrəvan xanlığında Azərbaycan türklərinin hakim etnos olduğunu söyləyə bilərik. Bununla belə, ilkin mənbələr İrəvan xanlığının əhalisinin etnik tərkibi ilə bağlı dəqiq say vermirlər ki, bu da məsələni dəqiqləşdirməkdə çətinlik yaradır.

İrəvan xanlığı dövründə İrəvan bölgəsinin əhalisinin etnik-dini tərkibi ilə bağlı xanlıq dövrünün məlumatlarından fərqli olaraq İrəvan xanlığının Rusiya tərəfindən işğalı dövrünün məlumatları nisbətən dolğun və hərtərəflidir. Bunu onunla əsaslandırmaq olar ki, Rusiya imperiyası Azərbaycan ərazilərini, o cümlədən İrəvan xanlığını işğal etdikdən sonra buraya məqsədli olaraq kütləvi şəkildə qeyri-millətləri, o cümlədən erməniləri köçürüb yerləşdirmişdir. Elə bu məqsədlə də gələcək strateji hədəflərinə çatmaq üçün imperiyanın hərbi, iqtisadi, elmi-mədəni imkanlarından istifadə etmiş, bölgəni daha dərindən öyrənə bilmişdir.

İrəvan xanlığının əhalisinin etnik-dini tərkibinin üzə çıxarılmasında 1828-1832-ci illərdə burada aparılmış kameral təsvir mühüm rol oynayır. O da bir həqiqətdir ki, İ.İ.Şopen tərəfindən tərtib olunmuş bu kameral təsvir xanlığın işğalından sonrakı dövrü əhatə edir və 1852-ci ildə nəşr edilmişdir. Bununla belə, nəzərə alsaq ki, xanlığın işğalından az bir müddət sonra burada kameral təsvir aparılmışdır, o zaman burada əksini tapan məlumatların çox da fərq etmədiyi qənaətinə gəlmək mümkündür.

İ.İ.Şopen yazır ki, İrəvan xanlığı ərazisində Qarapapaqlı (840 ailə, 4619 nəfər), Böyük Çobanqara (159 ailə, 988 nəfər), Saraşlı (90 ailə, 541 nəfər), Dəmirçili (31 ailə, 228 nəfər), Kərimbəyli (55 ailə, 357 nəfər), Qafarlı (98 ailə, 652 nəfər), Şeyxlər (34 ailə, 232 nəfər), Qarabağlı (12 ailə, 68 nəfər), Cəfərli (16 ailə, 82 nəfər), Əli Şərurlu (12 ailə, 75 nəfər), Gödəkli (24 ailə, 158 nəfər), Cəmilli (10 ailə, 65 nəfər), Çaxırlı (57 ailə, 308 nəfər), Kürkübaşlı (13 ailə, 72 nəfər), Ayrumlu (631 ailə, 3484 nəfər), Seyidli-Axsaxlı (311 ailə, 1754 nəfər), Taşanlı (124 ailə, 565 nəfər, Səədli (160 ailə, 565 nəfər), Muğanlı (200 ailə, 1100 nəfər), Şahdili (164 ailə, 959 nəfər), Sədərkli (149 ailə, 940 nəfər) müsəlman-türk tayfaları yaşayırdı [12, s. 535-537]. Məlumatlar göstərir ki, İrəvan xanlığı ərazisində müsəlman-türk tayfaları içərisində Qarapapaqlar birinci yerdə gəlirdi. Faiz nisbəti ilə 25,9% təşkil edirdi.

İ.İ.Şopen yazır ki, keçmiş İrəvan xanlığının ərazisində (İrəvan şəhəri, mahallar və tərəkəmələr də daxil olmaqla) yaşayan cəmi 77392 sakinin 74%-ni (57319 nəfər) tatarlar, 25,7%-ni (19878 nəfər) ermənilər, 0,3%-ni (195 nəfər) boşalar (qaraçılar-Ə.B.) təşkil edirdi [12, s. 543]. Müəllif yazır ki, İrəvan şəhərində 9955 nəfər əhali yaşayırdı ki, bunun da 7286 nəfəri tatar (75,5%), 2174 nəfəri (22,5%) erməni, 195 nəfəri boşa idi. Bundan başqa, Qırxbulaq mahalında 1779 nəfər (383 nəfər tatar, 1396 nəfər erməni), Zəngibasar mahalında 6016 nəfər (5413 nəfər tatar, 603 nəfər erməni), Gərnibasar mahalında 4321 nəfər (4176 nəfər tatar, 145 nəfər erməni), Vedibasar mahalında 3464 nəfər (3449 nəfər tatar, 15 nəfər erməni), Şərur mahalında 6510 nəfər (6510 nəfər tatar, erməni 0), Sürməli mahalında 10724 nəfər (4832 nəfər tatar, 5892 nəfər erməni), Dərəkənd-Parçenis mahalında 3272 nəfər (3267 nəfər tatar, 5 nəfər), Səədli mahalında 1004 nəfər (1004 nəfər tatar, erməni-0), Talın mahalında 836 nəfər (420 nəfər tatar, 416 nəfər erməni), Seyidli-Axsaxlı 1782 nəfər (1754 nəfər tatar, 28 nəfər erməni), Sərdarabad mahalında 5051 nəfər (1837 nəfər tatar, 3224 nəfər erməni), Körpübasar mahalında 7882 nəfər (2592 nəfər tatar, 5290 nəfər erməni), Abaran mahalında 58 nəfər (tatar 0, 58 nəfər erməni), Dərəçiçək mahalında 1852 nəfər (1300 nəfər tatar, 552 nəfər erməni), Göyçə mahalında 5697

nəfər (5607 nəfər tatar, 90 nəfər erməni), 7489 nəfər isə tərəkəmə yaşayırdı [12, s. 543-600]. Məlumatlardan göründüyü kimi İrəvan xanlığında 77392 nəfər əhali yaşayırdı ki, bunun da 57319 nəfər tatar, 19878 nəfəri erməni idi.

Nəticə. Beləliklə, aparılan araşdırmalar göstərir ki, İrəvan bölgəsi Azərbaycanın ən qədim tarixə malik, siyasi mədəniyyətimizin zirvəsi olan ərazilərdən biri olmuşdur. Əsrlər boyu bu ərazilərdə Azərbaycan türkləri yaşamış, dövlətçilik tariximizdə mühüm yer tutmuşdur. Səfəvilər dövründə Çuxursəd adlanan bu bölgə sonralar Əfşarlar imperiyasının və İrəvan xanlığının əraziləri olmuşdur. Təəssüflər olsun ki, çar Rusiyasının Cənubi Qafqaz, o cümlədən Azərbaycanla bağlı işğalçılıq siyasəti bölgənin gələcək taleyində öz təsirlərini göstərmişdir. Belə ki, İrəvan xanlığı çar Rusiyası tərəfindən işğal edilərək buraya çoxsaylı qeyri-millətlər, o cümlədən ermənilər məqsədli şəkildə köçürülmüşdür. Çar Rusiyasının işğalçılıq siyasəti təkcə bölgənin coğrafi mənzərəsini deyil, onun etnik mənzərəsinə, eləcə də toponimlərə, hidronimlərə qarşı da yönəlmişdir. Bu zaman İrəvan xanlığının əhalisinin etnik-dini tərkibi də məqsədyönlü şəkildə dəyişdirilmişdir. Bununla belə, istər İrəvan xanlığı, istərsə də Rus işğalı dövrünün səndlərindən aydın olur ki, bölgənin etnik-dini tərkibində Azərbaycan türkləri, tatarlar öz üstünlüyünü qoruyub saxlaya bilmişdir. Rusiya və Qacarlar arasında gedən həm birinci, həm də ikinci müharibənin gedişində türk-müsəlman əhalisi məcburiyyət ucbatından bölgəni tərk etməyə məcbur qalsa da, İrəvan xanlığının əhalisinin 78%-ni tatarlar (Azərbaycanlılar-Ə.B) təşkil etmişdir. İşğal dövrü və işğaldan sonrakı ilk illərdə bölgəyə çoxsaylı erməni əhali köçürülsə də, bu nisbət 20%-dən yuxarı olmamışdır.

ƏDƏBİYYAT

1. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Elmi redaktor Y.Mahmudov. Bakı: Azərbaycan, 2010.
2. Qarayev E. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında). Bakı: Mütərcim, 2016, 544 s.
3. Məmmədova İ. İrəvan xanlığının və İrəvan şəhərinin əhalisi // İrəvan necə varsa. Keçmişdən bu günə. Bakı: Aspoliqraf, 2022, s. 77-88.
4. Məhəmmədhəsən V. Azərbaycan (coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat). Bakı: Azərnəşr, 1993, 204 s.
5. Nəcəfli G. İrəvan şəhəri xanlıq dövründə // İrəvan necə varsa. Keçmişdən bu günə. Bakı: Aspoliqraf, 2022, s. 71-77.
6. Акты, собранные Кавказской Археографической комиссией (АКАК). Т. 1-12, под ред. А.Берже. Тифлис, 1866-1904.
7. Гильденштедт И.А. Путешествие по Кавказу в 1770 - 1773 гг. СПб: Петербургское Востоковедение, 2002, 512 с.
8. Дубровин Н. История войны и владычества русских на Кавказе. В 6-и т. т.1, книга II, СПб, 1871, 422 с.
9. Кавказский сборник, издаваемый по указанию Главнокомандующего Кавказской армией. Т. 22, Тифлис, 1901.
10. Отношение гр. Паскевича к начальнику Главного Штаба Е.И.В., от 2-го апреля 1828 года, №51, АКАК., т. VII, д. 438, стр. 487 491.
11. Отношение ген. Ермолова к т.с. Блудову от 16-го ноября 1826 года, №82, АКАК., т. VII, д. 214, стр. 258-260.
12. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПБ, 1852, 1232 с.

АЛИ БАБАЗАДЕ
Докторант Бакинского государственного университета

ЭТНОРЕЛИГИОЗНЫЙ СОСТАВ ИРЕВАНСКОГО РЕГИОНА В ПЕРИОД ИРЕВАНСКОГО ХАНСТВА И РУССКОЙ ОККУПАЦИИ

В статье рассматривается этнорелигиозный состав Иреванского региона в период Иреванского ханства и русской оккупации. Исследования показывают, что Иреванский регион был

одним из древних исторических регионов Азербайджана. До русских оккупаций в начале XIX века абсолютное большинство населения Иреванского ханства составляли азербайджанские тюрки. Об этом наглядно свидетельствуют подробные тетради, составленные как в период Сефевидов, так и после османских оккупаций Азербайджана, а также источники периода ханства и русской оккупации. Источники также наглядно показывают, что хотя турецко-мусульманское население было вынуждено покинуть регион во время русской оккупации, 74% населения Иреванского ханства составляли татары (азербайджанцы - А.Б.). Хотя в период оккупации и в первые годы после оккупации в регион было переселено большое армянское население, эта доля не превышала 25%.

Ключевые слова: Азербайджан, Иреван, ханство, население, этнорелигиозный состав, оккупация.

ALI BABAZADEH
Doctoral student of Baku State University

THE ETHNO-RELIGIOUS COMPOSITION OF THE IREVAN REGION DURING THE IRAVAN KHANATE AND THE RUSSIAN OCCUPATION

The article examines the ethno-religious composition of the Iravan region during the Iravan Khanate and the Russian occupation. Studies show that the Iravan region was one of the ancient historical regions of Azerbaijan. Before the Russian occupations at the beginning of the 19th century, the absolute majority of the population of the Iravan Khanate were Azerbaijani Turks. This is clearly evidenced by detailed notebooks compiled both during the Safavid period and after the Ottoman occupations of Azerbaijan, as well as sources from the khanate period and the Russian occupation period. The sources also clearly show that although the Turkish-Muslim population was forced to leave the region during the Russian occupation, 74% of the population of the Iravan Khanate was Tatars (Azerbaijanis - A.B). Although a large Armenian population was resettled to the region during the occupation period and in the first years after the occupation, this proportion did not exceed 25%.

Keywords: Azerbaijan, Iravan, khanate, population, ethno-religious composition, occupation.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 12 may 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Mehman Abdullayev, t.e.d. Qabil Əliyev.